# "Türkiye" qəzeti: Ermənistan tez və ya gec Prezident İlham Əliyevin bütün tələblərini yerinə yetirəcək

**Türkiyənin türk dünyası ilə əlaqə yollarını kəsməyə cəhd edən bir sıra Qərb dövlətləri Ermənistan kartını oynayır. Fransa və ABŞ Zəngəzur dəhlizinin açılmasını istəmir, Rusiyanı cənubdan bloklamaq və İranın hərəkətlərinə nəzarət etmək üçün platforma yaratmaq istəyirlər ki, bu da ümumi strateji planın bir hissəsidir. Azərbaycan Prezidenti İlham Əliyev Ermənistanı inkişafın önündə baryerə çevirməyə çalışan Qərbin bu məqsədlərindən xəbərdardır.**

AZƏRTAC xəbər verir ki, bu barədə "Türkiye" qəzeti Azərbaycan rəhbərinin yerli mediaya verdiyi son müsahibəni xatırladaraq yazır.

Nəşr qeyd edir ki, Avropa İttifaqı və ABŞ həm İrəvandan, həm də Tbilisidən istifadə etməyə, bununla da Rusiya, İran və türk dünyasına qarşı "forpost" yaratmağa çalışırlar.

Məqalədə qeyd edilir ki, Azərbaycanla Ermənistan arasında yeni müharibə türk dünyasında gedən inteqrasiya prosesləri və yaxınlaşmalardan narazı olan Qərb dairələrinin planlarına uyğundur.

Qəzet vurğulayır ki, Fransa silahlarının tədarükü Yerevanın müdafiə qabiliyyətini qətiyyən gücləndirmir, əksinə, Ermənistanın mövqelərinin daha da zəifləməsinə gətirib çıxaracaq.

Yazıda daha sonra qeyd edilir: "Donald Tramp administrasiyasının Cənubi Qafqazla bağlı mövqeyi hələ məlum deyil. Amma fakt bundan ibarətdir ki, əgər İrəvan regionda


Son Dakika Yazarlar Gündem Ekonomi Dünya Teknoloji Spor Resmi İlanlar Tümü

## İlham Aliyev: Ermenistan İslamofobik, ırkçı!

Ermenistan-Azerbaycan arasındaki meseleler nihayete ermiş değil!

Karabağ zaferinin ardından Ermenistan-Azerbaycan arasında pek çok mesele çözülmüş olsa da hâlâ çözülemeyen pek çok girift sorun masada duruyor ve gün geçtikçe Batılı devletlerin de dahil olmasıyla sorunların diplomatik çözümü zorlaşıyor…

Geçtiğimiz günlerde Azerbaycan Cumhurbaşkanı İlham Aliyev'in birkaç televizyon kanalına verdiği röportaja baktığımızda İlham Aliyev; Ermenistan'ın ikircikli tutumundan artık çok ciddi rahatsızlık duyduğunu, Ermenistan'ın bir an önce bazı konularda ivedi adımlar atmasını beklediğini aksi takdirde

yenidən eskalasiya və müharibə cəhdi edərsə, heç bir ölkə Türkiyə və Azərbaycanın qarşısına çıxa bilməyəcək. Türk dünyası öz nailiyyətlərindən imtina etməyəcək".

Nəşr oxucuların diqqətinə çatdırır: "Ermənistan tez və ya gec Prezident İlham Əliyevin bütün tələblərini yerinə yetirəcək. İrəvan Zəngəzur dəhlizini könüllü, yaxud məcburi surətdə açacaq. Ankara və Bakının bu məsələdə ortaq iradəsi çox mühümdür. Türkiyəni Azərbaycan üzərindən Asiya ölkələri ilə birləşdirən ticarət marşrutu bir çox ölkədə narahatlıq doğursa da, bu fakt hamı tərəfindən qəbul ediləcək".

Qəzet, həmçinin oxucuların diqqətini Ermənistanın xəritələrində olan tarixi toponimlərdəki dəyişikliklərə də cəlb edir: "Çar Rusiyası dövründə müasir Ermənistanın xəritəsində bütün adlar Azərbaycan dilində olub. Ermənistan Azərbaycanın tarixi torpaqlarını zəbt etməklə tarixi reallıqları təhrif edərək yeni status-kvo formalaşdırmağa cəhd edib". Yazıda 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin sərhədinin müasir Türkiyə sərhədlərinə çatdığı xatırladılır. "Ermənistan bunu yaxşı bilir", - deyə "Türkiye" vurğulayır.

Məqalədə məntiqli sual yer alır: "Nə üçün Azərbaycanın qərb rayonları Naxçıvandan ayrılıb? Ermənistan niyə Azərbaycanın iki hissəsi arasında yer alır? Bu, tarixi ədalətə, beynəlxalq hüquqa və "fizika qanunlarına" ziddir".

Azərbaycan. - 2025.-18 yanvar (№11).- S.6.